# Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin İstanbulda üçtərəfli görüşü olub

Oktyabrın 30-da İstanbulda Azərbaycan, Türkiyə və İran xarici işlər nazirlərinin VI üçtərəfli görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, nazirlər Elmar Məmmədyarov, Mövlud Çavuşoğlu və Məhəmməd Cavad Zərif İstanbulun tarixi Dolmabaxça sarayında bir araya gəliblər. Görüşdə İstanbul Bəyannaməsi imzalanıb.

Sonra nazirlər görüşün yekunları ilə bağlı mətbuat konfransı keçiriblər.

Türkiyə Cümhuriyyətinin quruluşunun 95-ci ildönümü münasibətilə açılışı olan İstanbul Hava Limanındakı mərasimdə iştirak etdiklərinə görə həmkarlarına təşəkkürünü ifadə edən nazir Mövlud Çavuşoğlu üçtərəfli görüşdə qəbul olunan İstanbul Bəyannaməsi barədə məlumat verdi. Nazir diqqətə çatdırıb ki, bəyannamədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normaları çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü şərti ilə həll olunmasının vacibliyi, eləcə də üç ölkə arasında əməkdaşlıq əlaqələrinin genişlənməsinə dair yeni yolların axtarılması və s. məsələlər əksini tapıb. Bundan başqa, Türkiyə və İranın Bakı şəhərinin 2025-ci ildə ümumdünya sərgisinə namizədliyini tam şəkildə dəstəklədiyini qeyd edən nazir əminliklə bildirib ki, Azərbaycan bu istəyinə nail olacaqdır.

İstanbul Hava Limanının açılışı münasibətilə təbriklərini çatdıran nazir Elmar Məmmədyarov Azərbaycanın ərazi bütövlüyünü dəstəklədikləri üçün hər iki həmkarına səmimi minnətdarlığını ifadə edib. Üç ölkə arasında həyata keçirilən enerji və nəqliyyat dəhlizlərinin əhəmiyyətindən danışan azərbaycanlı nazir bildirib ki, yaxın gələcəkdə Astara (İran)-Rəşt (İran) dəmir yolunun tikintisi gerçəkləşərsə bu, Bakı-Tbilisi-Qars, və Şimal-Cənub dəmir yolları üçün daha böyük perspektivlər yaradacaq.

Görüşün əhəmiyyəti barədə fikir və mülahizələrini bölüşən nazir Məhəmməd Cavad Zərif qeyd edib ki, ölkəsi Dağlıq Qarabağ probleminin beynəlxalq hüququn normaları çərçivəsində həllinə tərəfdardır. Azərbaycan, Türkiyə və İran əməkdaşlıq əlaqələrinin siyasi iradə nəticəsində ortaya çıxdığını deyən iranlı nazir diqqətə çatdırıb ki, münasibətlərin inkişafı bölgədə sülhə, sabitliyə və inkişafa böyük töhfədir.

Nazirlər jurnalistləri maraqlandıran sualları cavablandırıblar.

Qeyd edək ki, nazirlər VII görüşün İranda keçirilməsi barədə razılıq əldə ediblər.

Azərbaycan.- 2018.- 31 oktyabr.- S.6.